Action funded by the European Union

EU4Environment
Armenia, Azerbaijan, Belarus, Georgia, Republic of Moldova, Ukraine

# "EU4ENVIRONMENT" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ ÖLKƏLƏR ARASINDA VİRTUAL KONSULTASİYALAR

## Azərbaycan

**4 iyun 2020-ci il**

Başlama vaxtı: Brüssel/Paris vaxtı ilə saat 14:00 - Bakı vaxtı ilə saat 16:00
Yekunlaşma vaxtı: Brüssel/Paris vaxtı ilə saat 15:30 - Bakı vaxtı ilə saat 17:30

# Qısa məruzə

Action implemented by:

OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment programme | UNIDO | WORLD BANK GROUP

# *Qısa məruzə*

**Bölmə 1. İclas sədrinin açılış nitqi**

Qrupun rəhbəri cənab Maykl Rupp iclasda açılış nitqi ilə çıxış edərək Avropa Komissiyasının (AK) adından iştirakçıları salamladı. O, COVID-19 pandemiyasının yayıldığı çətin dövrdə "EU4Environment" layihəsi çərçivəsində Azərbaycan ilə bu konsultasiyaların həyata keçirilməsinin zəruriliyini vurğuladı və yaranmış imkanı "EU4Environment" fəaliyyəti ilə bağlı yenilikləri təqdim etmək və işləri ölkənin prioritetləri ilə daha yaxşı uyğunlaşdırmaq baxımından müsbət qiymətləndirdi. O, artıq Ermənistan, Gürcüstan və Moldova Respublikası ilə bu cür konsultasiyaların aparıldığını tədbir iştirakçılarının nəzərinə çatdırdı.

Cənab Rupp qeyd etdi ki, 18 mart 2020-ci il tarixində qəbul olunmuş Şərq Tərəfdaşlığı strategiyası üzrə ən son informasiyada qeyd olunduğu kimi "yaşıl" iqtisadi inkişaf və ətraf mühitin qorunması Aİ-nin gündəliyində vacib məsələlər olaraq qalır. O, iqtisadi artım tempinin zəifləməsinin ətraf mühitin mühafizəsi fəaliyyətini pozmamalı olduğunu bildirib və hər kəsi post-pandemiya dövründəki bərpa prosesində ətraf mühit və iqlim məsələləri ilə bağlı səyləri gücləndirməklə yeni çağırışları müsbət imkanlara çevirməyə dəvət edib. O, iştirakçıların nəzərinə çatdırıb ki, Şərq Tərəfdaşlığı tarixində ilk virtual zirvə toplantısının və ya Liderlər Konfransının 18 iyun 2020-ci il tarixində keçirilməsi planlaşdırılır.

Cənab Rupp Şərq Tərəfdaşlığı ölkələrini fərdi mühafizə vasitələri, diaqnostika testləri və digər zəruri avadanlıqlar və texniki dəstəklə təmin etmək məqsədilə Ümumdünya Səhiyyə Təşkilatı ilə imzalanan müqavilə də daxil olmaqla, Avropa İttifaqının COVID-19 pandemiyası ilə bağlı çətinlikləri aradan qaldırmaq üçün Şərq Tərəfdaşlığı ölkələrinə hərtərəfli dəstək göstərməsini xüsusilə vurğulayıb. O, həmçinin, istixana qazlarının ildə 150 min ton azaldılması məqsədilə İqlim Dəyişikliyi üzrə Maliyyə və Texnologiyanın Köçürülməsi Mərkəzinin (FINTECC) "EU4Climate" layihəsini dəstəkləmək üçün Avropa Yenidənqurma və İnkişaf Bankı ilə yeni müqavilənin imzalanması barədə məlumat verib.

**Bölmə 2. Ölkədəki vəziyyət barədə ən son məlumatlar**

*İştirakçıların diqqətinə, həmçinin aşağıdakılar çatdırıldı:*

- Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi cənab Faiq Mütəllimov Nazirliyin adından fikir bildirərək bu konsultasiyada iştirakı yüksək qiymətləndirdi və aşağıdakıları vurğuladı:
    - Covid-19 pandemiyasının pik həddə çatdığı dövrdə Nazirliyin məhdud sayda işçi heyəti ilə davamlı işlər görməsi və məhdudiyyətlər aradan qaldırılarkən bütün işçilərin işə çıxması (həftəsonları bəzi məhdudiyyətlərin hələ də qüvvədə olmasını nəzərə alaraq);
    - Bütün üz-üzə formatlı görüşlərin virtual formatlı görüşlərlə əvəzlənməsi və fiziki iştirakı tələb edən bütün fəaliyyətlərin təxirə salınması (məsələn, Azərbaycana BMT-nin Avropa İqtisadi Komissiyasının Ekoloji Fəaliyyətin Səmərəliliyinə Baxış missiyası oktyabrın əvvəlinə təxirə salındı);
    - Məhdudiyyətlərə baxmayaraq müsbətyönümlü siyasi dəyişikliklər, məsələn:
        - Nazirliyin tərkibində "yaşıl" inkişaf üçün nəzərdə tutulmuş yeni ayrıca strukturun - Beynəlxalq Əməkdaşlıq Şöbəsinin Yaşıl İnkişaf və İnnovasiyalar Bölməsinin yaradılması və bu kontekstdə Bölmə Rəhbəri Aysel Rzayevanın təqdim olunması;
        - bu istiqamətdə fəaliyyət və tədbirlərə təkan vermək üçün yeni tərkibin İqlim Dəyişikliyi üzrə Dövlət Komissiyası tərəfindən təsdiqlənməsi;
        - su resurslarının çatışmazlığı probleminin həlli üçün su resurslarının idarə edilməsi üzrə yeni komissiyanın (Prezidentin sərəncamı ilə) yaradılması;
        - Zaqatala regionunda Cənubi Qafqazın ilk biosfer qoruğunu yaratmaq üçün yeni layihənin start götürməsi;
    - Ətraf mühitlə bağlı problemlərin aradan qaldırılmasının əhəmiyyətini vurğulamaq üçün mühüm hadisə olan Ümumdünya Ətraf Mühit Günü.
- İqtisadiyyat Nazirliyinin nümayəndəsi Aytəkin Quluzadə iştirakçıları salamlayaraq aşağıdakı məsələləri diqqətə çatdırdı:
    - Covid-19 pandemiyası ilə bağlı məhdudiyyətlər zamanı bütün mərkəzi icra orqanlarının fasiləsiz fəaliyyət göstərməsi;
    - COVID-19 pandemiyasından sonrakı dövr üçün "Koronavirus pandemiyasının və onunla əlaqədar dünya enerji bazarlarında və fond birjalarında baş verən dəyişikliklərin Azərbaycan Respublikasının iqtisadiyyatına, ölkədə makroiqtisadi stabilliyə, məşğulluq məsələlərinə və biznes müəssislərinə mənfi təsirinin azaldılması üzrə tədbirlər" barədə Fəaliyyət Planı çərçivəsində pandemiya və post-pandemiya dövründə hökumət tərəfindən görülən tədbirlər. Planda üç istiqamət mövcuddur:
        - iqtisadi artıma və sahibkarlığa dəstək (konkret tədbirlərə aşağıdakılar daxildir: pandemiyanın milli iqtisadiyyata mənfi təsirinin qısa müddətdə azaldılması üzrə tədbirlər, iqtisadiyyatın şəffaflığının artırılması, iqtisadi fəallığın qorunub-saxlanılması istiqamətində stimullaşdırıcı

addımlar, kreditləşmə, əlavə dəstək tədbirləri, əlverişli şəraitin yaradılması məqsədilə qanunvericiliyə dəyişikliklərin edilməsi);

- məşğulluğa və sosial rifaha dəstək (dövlət sektorunun işçilərinin işsizlik risklərindən qorunması və sosial müdafiəsi; işsiz və işdən çıxarılmış şəxslərin sosial müdafiəsi; əhalinin ən həssas qruplarının müdafiəsi) və
- mikroiqtisadiyyat və maliyyə sabitliyi.

**Qərarlar və görüləcək tədbirlər:**

İştirakçılar:

- Azərbaycanda COVID-19 pandemiyası ilə bağlı davamlı cavab tədbirləri ilə tanış oldular;
- "EU4Environment" layihəsi vasitəsilə ölkənin COVID-19 pandemiyasından sonrakı dövrdə bərpa fəaliyyətini dəstəkləməyə razılaşdılar;
- Proqramın yerinə yetirilməsi və fəaliyyətlərin əlaqələndirilməsi ilə bağlı vaxtlı-vaxtında məlumat verməyə davam edirlər.

**Bölmə 3. İlin qalan hissəsi üçün "EU4Environment" layihəsi çərçivəsində başa çatdırılmış və davam edən fəaliyyətlər haqqında yeni məlumatlar**

*İştirakçıların diqqətinə, həmçinin aşağıdakılar çatdırıldı:*

- Azərbaycanın Tədbirlər Planı çərçivəsində həyata keçirilən fəaliyyətlər barədə İcraçı Tərəfdaşların ən son məlumatları:
  - Nəticə 1 (BMT-nin Ətraf Mühit Proqramı və BMT-nin Avropa İqtisadi Komissiyası) – 2 və 3-cü slaydlara nəzər salın;
  - Nəticə 2 (BMT-nin Ətraf Mühit Proqramı və BMT-nin Sənaye İnkişafı Təşkilatı) – 4 və 5-ci slaydlara nəzər salın;
  - Nəticə 3 və 5.3 (İƏİT) – 6 və 7-ci slaydlara nəzər salın.
- AK tərəfindən hərtərəfli çərçivə sazişi barədə davam edən danışıqlar ilə əlaqədar hüquqi məsələlər səbəbindən hazırda gözləməkdə olan AK-Dünya Bankı müqaviləsi ilə bağlı Nəticə 4 üzrə ən son məlumatlar.
- Azərbaycan tərəfindən Nəticə 1 üzrə Strateji Ekoloji Qiymətləndirmə/Ekoloji Təsirin Qiymətləndirilməsi fəaliyyəti ilə bağlı iyuldan sonra normativ aktlara dair dəyirmi masa keçirmək, bu iclası 2020-ci ilin sonlarına və ya növbəti ilə saxlamamaq və bu qanunvericiliyin qəbulunu ləngitməməklə bağlı müraciət;
- Tender zamanı elanın yayılması üçün UNIDO-nu dəstəkləmək barədə EUD-un təklifi; və Nazirliyin layihənin başlama tarixi barədə məlumatın verilməsi ilə bağlı müraciəti;
- KOM-lar üçün ekoloji markalamanın üstünlükləri barədə təlimatın hazırlanmasını müzakirə etmək məqsədilə BMT-nin Ətraf Mühit Proqramı (və mümkün olarsa BMT-nin Sənaye İnkişafı Təşkilatı) ilə daha geniş ikitərəfli müzakirənin aparılması ilə bağlı müraciət;
- BMT-nin Ətraf Mühit Proqramının Dayanıqlı Dövlət Satınalmaları (DDS) və ekoloji markalama ilə bağlı tədbirlərin müəyyənləşdirilməsi üzrə fəaliyyətin əvvəlcə Azərbaycan tərəfindən seçilmədiyini (potensialın inkişafı istisna olmaqla) xatırlatması və mövcud fəaliyyət istiqamətləri çərçivəsində ekoloji markalamanın tətbiq oluna biləcəyi üsulun ikitərəfli müzakirəsinin təklif edilməsi;
- Tərəfdaşların yeni yaradılmış Kiçik və Orta Biznesin İnkişafı Agentliyini Nəticə 2 və 3 üzrə dəstəkləmək üçün hazır olması;
- 3.3.2-ci fəaliyyət üzrə Azərbaycana Moldovada Ekoloji Fond üzrə Layihədən əldə olunan təcrübənin tətbiq edilməsi barədə İƏİT-in təklifi;
- Maliyyə Nazirliyinə enerji ilə bağlı vergilər barədə məlumatın verilməsi üçün edilən müraciətin statusu haqqında Azərbaycanın ən son məlumatları (məktub tərcümə olunub, Nazirlik bəzi suallar verə bilər, lakin mövcud məlumatları təqdim etməyə hazırdır);
- Cari tədbirlər planı ilə bağlı heç bir ciddi dəyişikliyin lazım olmadığı barədə ümumi razılaşma və 2020-ci il üzrə iş planı barədə ən son məlumatları əldə etmək üçün Azərbaycanın müraciəti

**Qərarlar və görüləcək tədbirlər:**

İştirakçılar aşağıdakılara razılıq bildirdilər:

- Alternativ fəaliyyət rejimlərindən (virtual ünsiyyət/görüşlər və yerli məsləhətçilərin cəlb olunması) istifadə etməklə Tədbirlər Planında nəzərdə tutulan fəaliyyətlərin müəyyənləşdirilmiş müddət ərzində icrasına davam etmək;
- Proqramdan kənarda qalan fəaliyyətlərin icrasına ikitərəfli nəzarət və Tədbirlər Planına edilən bütün düzəlişlərlə bağlı Azərbaycana ən son məlumatların verilməsi;
- Yuxarıda göstərilən fərdi fəaliyyətlərlə bağlı məsələlərin icrasına ikitərəfli nəzarət (BMT-nin Avropa İqtisadi Komissiyası – Strateji Ekoloji Qiymətləndirmə/Ekoloji Təsirin Qiymətləndirilməsi üzrə dəyirmi masa barədə rəylər; BMT-nin Ətraf Mühit Proqramı – ekoloji markalama və Dayanıqlı Dövlət Satınalmaları üzrə; BMT-nin Sənaye İnkişafı Təşkilatı – növbəti tender üzrə; İƏİT – 3.3.2-ci fəaliyyət və enerji ilə bağlı vergilər üzrə)
- AK-dan AK/Dünya Bankı müqaviləsinin statusu ilə bağlı yeni məlumatlar əldə etmək (Nəticə 4).

**Bölmə 4. "EU4Environment" layihəsi çərçivəsində Regional Assambleyasının iclasına hazırlıq**

*İştirakçıların diqqətinə, həmçinin aşağıdakılar çatdırıldı:*

- İƏİT tərəfindən koordinasiya fəaliyyətlərinə dair ən son məlumatlar, o cümlədən altı Şərq Tərəfdaşlığı ölkəsi ilə virtual konsultasiyalar və təqdimatın 9-cu slaydında göstərildiyi kimi növbəti Regional Assambleyanın keçirilməsi ilə bağlı təklif olunan imkanlar;
- Regional Assambleyanın iclasının üz-üzə formatda keçirilməsinə üstünlük verilməsi, beynəlxalq siyasi məhdudiyyətlər ilə bağlı dinamik vəziyyətdən asılı olaraq hər iki imkanın nəzərdə saxlanılması;
- Azərbaycanın virtual iclasları iki gün əvəzinə 1 gündə keçirməklə bağlı müraciəti; və AK-nın iclasın müddətinin çox qısa olması ilə bağlı təklifi (maksimum 2 saat, məsələn, gün ərzində maksimum 2 saatlıq iki ardıcıl görüşün keçirilməsi).

**Qərarlar və görüləcək tədbirlər:**

İştirakçılar aşağıdakılara dair razılıq bildirdilər:

- Regional Assambleyanın 22-23 sentyabr 2020-ci il tarixlərində təşkil olunacaq ikinci iclasının virtual formatda keçirilmə tarixlərini saxlamaq; və səyahət məhdudiyyətlərinin aradan qaldırılmasından asılı olaraq 2020-ci ilin noyabr-dekabr aylarında üz-üzə görüşün təşkilinin mümkünlüyünü nəzərdən keçirmək;
- Vəziyyəti və səyahətlə bağlı məhdudiyyətləri diqqətdə saxlamağa davam etmək.

**Bölmə 5. Məlumatların verilməsi (Nəticə 5.2) və digər layihələrlə əlaqələndirmə**

*İştirakçıların diqqətinə, həmçinin aşağıdakılar çatdırıldı:*

- Təqdimatın 10-cu slaydında göstərildiyi kimi məlumatlandırma fəaliyyətləri üzrə İƏİT-in ən son məlumatları;
- Xəbər bülleteninə abunə olmaq və məlumatları həmkarlar ilə bölüşmək üçün dəvət;
- Azərbaycanın videoçarxları əldə etmək və onları həmkarlar arasında geniş şəkildə yaymaqla bağlı müraciəti;
- Daha geniş əhali tərəfindən başa düşülməsi üçün tematik videoların yerli dillərə tərcüməsinin təklif olunması.

**Qərarlar və görüləcək tədbirlər:**

İştirakçılar aşağıdakılara razılıq bildirdilər:

- İş Planında nəzərdə tutulmuş məlumatlandırma fəaliyyətinin həyata keçirilməsini davam etdirmək;
- Aİ-nin müşahidə ilə bağlı tələblərinin əməl olunmasına xüsusi diqqət yetirməyə davam etmək;
- Videoçarxları paylaşmaq və vizual materialları yerli dillərə tərcümə etməyi nəzərə almaq;
- Xəbər bülleteninə abunəliyi təşviq etmək.

**Bölmə 6. İnzibati məsələlərin həllində irəliləyiş (Nəticə 5.1)**

*İştirakçıların diqqətinə, həmçinin aşağıdakılar çatdırıldı:*

- İƏİT və BMT-nin Ətraf Mühit Proqramı tərəfindən Fəaliyyətin Qeydiyyatı, Milli Fəaliyyət üzrə Koordinator (MFK) və Milli İcra Komitəsi (MİK) ilə bağlı yeniliklər;
- Azərbaycanda Proqramın qeydiyyatının tələb olunmadığı barədə məlumat;
- Milli Fəaliyyət üzrə Koordinator cənab Kamran Rzayevi (hazırda UNEP ilə uzunmüddətli müqavilə) salamlamaq və ona dəstəyinə görə təşəkkür etmək;
- Yaşıl iqtisadiyyat ilə bağlı idarələrarası dialoqa dair MİK və Nəticə 1 üzrə fəaliyyətə keçid və bununla əlaqədar MFK-nın dəstəyinin müsbət qiymətləndirilməsi;
- Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə İqtisadiyyat Nazirliyi arasında MİK və ətraf mühitin mühafizəsi siyasəti üzrə dialoqun formalaşdırılması ilə bağlı mümkün imkanlar barədə davamlı müzakirələr, təklifin irəli sürülməsi və layihə ilə əlaqədar fəaliyyətləri müzakirə etmək üçün 1-ci görüşün təşkili.

**Qərarlar və görüləcək tədbirlər:**

İştirakçılar aşağıdakılara dair razılıq bildirdilər:

- Azərbaycanda qeydiyyatın tələb olunmadığını nəzərdə saxlamaq;
- MFK ilə bağlı cari iş mexanizmlərini davam etdirmək;
- MİK-in və nazirliyin daxilində "yaşıl" siyasət dialoqunun yaradılması ilə bağlı əlavə imkanları müzakirə etmək (Nəticə 1) və yaxın gələcəkdə ilk iclası təşkil etmək.

**Bölmə 7. Digər məsələlər və yekun**

- Aİ-nin Azərbaycandakı Nümayəndə Heyətinin Proqramda iştirak etməyə davam etmək və sinergiya yaratmağa və yerli bilikləri regional proqrama təqdim etməyə kömək edəcək məlumat və yeniliklərlə tanış olmaq barədə müraciəti;
- İƏİT Tərəfdaşların adından Azərbaycandakı həmkarlara təşəkkürünü bildirdi və Proqramın həyata keçirilməsini dəstəkləmək və Azərbaycana "daha yaşıl" iqtisadiyyat yaratmaqda kömək etmək üçün hazırda formalaşan səmərəli əlaqələri yüksək qiymətləndirdi.
- AK/Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə Baş Direktorluğunun nümayəndəsi Cənab Maykl Rupp iclasın əsas nəticələri ilə bağlı yekun fikirləri (mürəkkəb vəziyyət, "EU4Environment" proqramının dəyərli töhfəsi, tədbirlər planına davamlı dəstək, RA-nın virtual görüşünün keçirilməsinə dair razılaşma, 2020-ci ilin sonlarına doğru üz-üzə görüşün təşkili; MFK/MİK razılaşmalarının diqqətə çatdırılması) səsləndirdi. O qeyd etdi ki, tədbirlər planı nə kimi kiçik düzəlişlərin edilə biləcəyini nəzərdən keçirmək üçün təqdim olunacaq.
- Cənab Rupp müzakirələrə görə iştirakçılara minnətdarlığını bildirdi və iclası yekunlaşdırdı.

**Qərarlar və görüləcək tədbirlər:**

- İƏİT yenilənmiş tədbirlər planını göndərəcək və şərhlərlə bağlı qısa məruzə hazırlayacaq.

# Gündəliyin layihəsi

14:00-14:05 (5 dəq) — 1 — **İclasın sədri tərəfindən açılış nitqi**

- Cənab Maykl Rup, Avropa Komissiyası DG NEAR (təsdiq ediləcəkdir)

14:05-14:15 (10 dəq) — 2 — **Ölkədaxili vəziyyətlə bağlı ən son məlumatlar**

- Milli koordinatorlar tərəfindən cari vəziyyət barədə, o cümlədən COVID-19 sonrası bərpa planları və onların iqtisadiyyatın "yaşıllaşdırılmasına" mümkün təsirləri barədə qısa təqdimatlar
  - Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Beynəlxalq Əməkdaşlıq Şöbəsinin Beynəlxalq təşkilatlar və layihələr sektorunun müdiri vəzifəsini icra edən cənab Faiq Mütəllimov (təsdiq ediləcəkdir);
  - İqtisadiyyat Nazirliyinin Beynəlxalq təşkilatlarla əməkdaşlıq şöbəsinin direktor müavini Aytəkin Quluzadə (təsdiq ediləcəkdir);

14:15-14:55 (40 dəq) — 3 — **"EU4Environment" layihəsi çərçivəsində keçmiş və davam edən tədbirlər, o cümlədən ilin qalan hissəsi üçün planlarla bağlı ən son məlumatlar**

- İcraçı tərəfdaşlar tərəfindən təqdimatlar (baxın: PPT proqramında hazırlanmış təqdimat)
  - Nəticə 1 (UNEP və UNECE)
  - Nəticə 2 (UNIDO)
  - Nəticə 3 və 5.3 (İƏİT)
- Hər bir nəticədən sonra ölkələrin milli koordinatorlarının rəyləri: alternativ fəaliyyət rejimlərindən istifadənin əlverişliliyi (məsələn, virtual görüşlər, veb əsaslı təlimlər, yerli konsultantlardan istifadə) və tədbirlərin keçirilməsi, təxirə salınması, davam etdirilməsi. Konsultasiyadan sonra ikitərəfli əsaslarla daha ətraflı müzakirələr aparıla bilər.

14:55-15:05 (10 dəq) — 4 — **"EU4Environment" Regional İclasına hazırlıq**

- İƏİT tərəfindən təklif olunan variantların təqdim olunması (baxın: PPT proqramında hazırlanmış təqdimat)
  - 21 sentyabr 2020-ci il tarixində başlayan həftədə keçirilməsi planlaşdırılan Regional İclasın (22-23 sentyabr tarixlərində keçirilməsi təklif olunur) Zoom proqramı vasitəsilə virtual görüş formatında təşkil edilməsi (məsələn, iki günə bölünməklə 3 saatlıq səhər sessiyaları)
  - Səyahət məhdudiyyətləri ləğv olunduqdan sonra, ehtimal ki noyabr-dekabr aylarında Ukraynanın Kiyev şəhərində üz-üzə görüş
- Ölkə nümayəndələrinin rəyləri

15:05-15:15 (10 dəq) — 5 — **Digər layihələrlə məlumat mübadiləsi (Nəticə 5.2) və koordinasiya**

- İƏİT tərəfindən təqdimat (baxın: PPT proqramında hazırlanmış təqdimat)
- Ölkə nümayəndələrinin rəyləri

15:15-15:25 (10 dəq) — 6 — **İnzibati məsələlərlə bağlı ən son məlumatlar (Nəticə 5.1)**

- İƏİT tərəfindən tədbirlərin qeydiyyatı, milli fəaliyyət üzrə koordinator və milli icraçı komitə barədə təqdimat
- Ölkə nümayəndələrinin rəyləri

15:25-15:30 (5 dəq) — 7 — **Digər məsələlər və yekun**

- Cənab Maykl Rup, Avropa Komissiyası DG NEAR (təsdiq ediləcəkdir)

# İştirakçıların siyahısı

| Government representatives | | |
|---|---|---|
| **Ministry of Ecology and Natural Resources** | Mr Faig MUTALLIMOV<br>Head of international organizations and projects subdivision, International Cooperation Division<br>EU4Environment National Focal Point | |
| **Ministry of Economy** | Ms. Aytekin GULUZADE<br>Deputy head of department on cooperation with international organizations<br>EU4Environment National Focal Point | |
| | Ms. Basira HAJIYEVA<br>Department of Cooperation with International Organisations/ Adviser | |
| **Small and Medium Business Development Agency** | Mr. Emil ISMAYILKHANOV<br>Strategic and Project Management Department/ Head of Department | |
| | Mr. Natig MADATOV<br>International Cooperation Department/Head of Department | |
| | Mr. Ilkin ALIYEV<br>Strategic and Project Management Department/Head of Division | |
| **AzPromo** | Mr. Zohrab GADİROV<br>Investment Promotion Department/ Head of Department | |
| **DeVventures** | Mohamad Nabil RAFEE | |
| **National Action Coordinator and Partners' focal points** | | |
| **EU4Environment National Action Coordinator** | Mr. Kamran RZAYEV | |
| **National Focal Point of Espoo Convention** | Ms. Aysel RZAYEVA<br>Head of Green Development and Innovations Subdivision of the International Cooperation Division | |
| **Office at United Nations in Azerbaijan** | Tarek CHENITI<br>Head of UN Resident Coordinator | |
| **European Commission and EU Delegation** | | |
| **EC/DG NEAR** | Mr. Michael RUPP<br>Team Leader Connectivity | |
| | Ms. Angela BULARGA<br>International Aid / Cooperation Officer | |
| **EC/ENV** | Ms. Madalina IVANICA<br>Policy Officer | |
| **EU Delegation in Azerbaijan** | Ms. Ulviya ABDULLAYEVA<br>Programme Manager<br>Neighbourhood Policy - Cooperation | |

| | | |
|---|---|---|
| | Mr Rainer FREUND<br>Program Manager | |
| **Implementing Partners** | | |
| **UNEP** | Ms. Rie TSUTSUMI<br>Project Coordinator | |
| | Mr. Alex LESHCHYNSKYY<br>Technical Officer – Eco-innovation | |
| | Ms. Lesya NIKOLAYEVA<br>Technical Officer | |
| | Ms. Irina DAVIS<br>Project assistant | |
| **UNECE** | Mr. Leonid KALASHNYK<br>Project Coordinator | |
| | Ms. Elena KASHINA<br>Programme Management Assistant | |
| **UNIDO** | Ms. Carolina GONZALEZ MUELLER<br>Project Manager | |
| | Ms. Tatiana CHERNYAVSKAYA<br>Project Coordinator | |
| **OECD** | Mr. Krzysztof MICHALAK<br>Senior Action Coordinator | |
| | Ms. Irina BELKAHIA<br>Assistant Action Coordinator | |
| | Ms. Maria DUBOIS<br>Communications officer | |
| | Mr. Jonathan WRIGHT<br>Project Assistant | |
| | Ms Mari LAIKRE<br>Project Assistant | |
| | Ms. Nelly PETKOVA<br>Policy Analyst | |
| | Mr. David SIMEK<br>Policy Analyst | |
| | Mr. Guy HALPERN<br>Policy Analyst | |
| | Ms. Isabella NEUWEG<br>Policy Analyst | |
| **World Bank** | Ms. Gulana Enar HAJIYEVA | |
| **Interpreters** | | |
| **Interpreter** | Ms. Gunay RAHIMOVA | |
| **Interpreter** | Mr. Rahman RAHIMOV | |